**Mətləb Möhübbət oğlu Məhərrəmov**

**UOT:336.012.23: 336.6; JEL:G21;G23;G32;O16;P34.**

# Müasir dövrdə müəssisənin maliyyə dayanıqlılığının təmin edilməsi problemləri və həlli yolları

***Xülasə***

*Məqalədə müasir dövrdə müəssisənin maliyyə dayanıqlılığının təmin edilməsi problemləri və həlli yolları tədqiq olunmuşdur. Bu məqsədlə, maliyyə dayanıqlılığının mahiyyəti və əhəmiyyəti təhlil edilmişdir. Müəssisənin maliyyə dayanıqlılığının əsas prinsipləri və meyarları araşdırılmışdır. Müəssisənin maliyyə sabitliyinə təsir edən daxili və xarici amillər sistemli şəkildə baxılmışdır. Müəssisənin maliyyə dayanıqlılığının formalaşması və gücləndirilməsi üzrə mühüm yanaşmalara üstünlük verilməsi əsaslandırılmışdır. Maliyyə problemlərinin yaranması və dərinləşməsi prosesləri təhlil olunmuşdur. Müəssisənin maliyyə axınlarının hərəkəti üzrə səmərəli idarəetmə mexanizminin hazırlanması və tətbiq olunmasının vacibliyi bildirilmişdir. Maliyyə sabitliyini təmin etmək üçün, müəssisənin maliyyə mənbələrinin diversifikasiyalaşdırılmasının təmin edilməsi tədbirlərinin vacibliyi qeyd olunmuşdur. Müəssisənin  maliyyə strategiyasının əsasında şəffaflıq və dürüstliyin yer almasına xüsusi önəm verilmişdir. Maliyyə menecmentinin strateji funksiyalarının reallaşdırılmasının zəruriliyi əsaslandırılmışdır. Maliyyə menecmentinin peşəkarlıq səviyyəsinin artırılmasının diqqət mərkəzində saxlanılması bildirilmişdir. Müəssisənin tələb olunan dövriyyə vəsaitləri ilə fasiləsiz surətdə təminatı mexanizmlərinin olmasının vacibliyinə diqqət yönəldilmişdir. Maliyyə resurslarının hərəkəti üzrə optimal idarəetmə mexanizminin və nəzarət funksiyasının təmin edilməsinin strateji səviyyədə baxılması əsaslandırılmışdır. Antiböhran şəraitində müəssisənin maliyyə dayanıqlılığın təmin edilməsi problemlərinə toxunulmuşdur. Müasir dövrdə müəssisənin maliyyə dayanıqlılığının təmin edilməsi problemləri və həlli yolları üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.*

***Açar sözlər***: *müəssisənin maliyyə dayanıqlılığı, müəssisənin maliyyə problemləri, maliyyə sabitliyi, maliyyə strategiyası, maliyyə axınları, maliyyə resursları, maliyyənin idarəetmə mexanizmləri*

## Giriş

Müəssisənin maliyyə dayanıqlılığnın təmin edilməsi problemləri müasir dövrdə kifayət qədər aktualdır. Belə ki, qlobal maliyyə təhdidlərinin artdığı bir dövrdə maliyyə sabitiliyinin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Maliyyə sabitliyi bir çox məsələlərin və problemlərin sistemli şəkildə həll olunmasından bilavasitə asılıdır. Bu problemlərin həll olunması mexanizmlərinin əsasında maliyyə resurslarından istifadənin işlək alətlərinin hazırlanması və planlı şəkildə tətbiq edilməsi, son nəticədə müəssisənin strateji maliyyə siyasətinin nə dərəcədə uğurlu olmasından asılıdır. Müəssisənin maliyyə axınlarının hərəkəti üzrə optimal idarəetmə sisteminin yaradılması və maliyyə resurslarından səmərəli istifadənin təmin olunması üzrə balanslaşdırılmış maliyyə siyasəti və maliyyə fəaliyyəti mexanizmlərinin olması vacib şərtlərdəndir. Dayanıqlı maliyyə mexanizmlərinin işlənməsi və fəal tətbiq olunması müəssisənin dinamik fəaliyyəti üçün vacib olan bir məsələdir. Dövriyyə vəsaitlərinin tələb olunan səviyyədə olması, cari və perspektiv fəaliyyətinin maliyyə təminatının gücləndirilməsi müəssisənin daha uğurlu nəticələr əldə etməsinə imkan verər.

*©Mətləb Möhübbət oğlu Məhərrəmov Sumqayıt Dövlət Universiteti, doktorant. E-mail: science.info@gmail.com*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Müasir dövrdə müəssisənin maliyyə dayanıqlılığının gücləndirilməsi problemləri**

Ölkəmizdə iqtisadi fəaliyyət subyektlərinin maliyyə təminatının gücləndirilməsi və maliyyə sabitliyinin təmin edilməsi ilə bağlı məsələlər strateji xarakter daşıyır. Belə ki, ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə bu aspektlər öz ifadəsini tapmışdır [4]. Bundan əlavə, son illərdə ölkəmizdə maliyyə sabitiliyinin təmin edilməsi ilə bağlı institusional islahatlar da dərinləşmişdir. Maliyyə sabitiliyinin təmin edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir və müasir qlobal maliyyə çağırışlarına cavab verən maliyyə mexanizmlərinin və maliyyə resurslarına nəzarət formalarının təşkilinə daha çox üstünlük verilir [5]. Maliyyə resurslarına çıxışın asanlaşdırılması və daha etibarlı mexanizmlərinin yaradılması məsələləri də ciddi xarakter almışdır. Belə ki, müəssisələrin maliyyə təminatının universial mexanizmləri olmalı, bu mexanizmlərin çevik icra alətləri tətbiq edilməldir. Maliyyə və kredit resurslarının zəmanətliliyi, sığortalanması təmin olunmalıdır. 15 sentyabr 2017-ci il "Kredit Zəmanəti Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında bu kimi problemlərin həlli üçün müasir mexanizmlərin müəyyənləşdirilməsinə xüsusi önəm verilmişdir [9]. Hər bir müəssisənin maliyyə sabitliyi və maliyyə dayanıqlılığı strateji məsələlərdən hesab olunur. Maliyyə dayanıqlığı-müəssisənin elə maliyyə vəziyyətidir ki, bu zaman ödəmələrin hesabına ödəmə qabiliyyətinin yaxşılaşması borc alana kredit resursları verən bankın tələblərinin yerinə yetirilməsi şəraitində özəl kapitalın artımı və cari likvidliyin yüksəldilməsi, gələcək artım və inkişaf üçün özəl mənbələrin toplanması ilə eyni vaxtda baş verir. Müəssisənin maliyyə resurslarına olan tələbatı maksimum optimal planlaşdırlımalı və onun formalaşma mənbələri müəyyənləşdirilməlidir [10]. Digər tərəfdən, maliyyə resurslarının müxtəlif fəaliyyət həlqələri üzrə hərəkətinə dair nəzarət funksiyasının səmərəliliyinə ciddi önəm verilməlidir. Bu proseslərin davamlı şəkildə təhlil olunması və operativ idarəetmə qərarlarının verilməsi vacibdir. Eyni zamanda, müəssisənin maliyyə resurslarından istifadənin səmərəliliyi məsələləri kompleks şəkildə təhlil olunmalı və problemli məsələlərin vaxtında aşkarlanması, adekvat tədbirlərin görülməsi təmin olunmalıdır [14]. Ümumilikdə müəssisənin maliyyə vəziyyətinin obyektiv təhlil edilməsi, bu proseslərdə şəffalıq prinsiplərinə əməl olunması vacib şərtlərdəndir [15]. Müəssisənin maliyyə sabitiliyinin gücləndirilməsi və maliyyə dayanıqlılığının təmin eidlməsi problemləri üzrə alternativ həll variantlarının işlənib hazırlanması və bu istiqamətlərdə fəaliyyətin gücləndirilməsi müsbət səmərə verə bilər.

Müasir dövrdə müəssisənin maliyyə dayanıqlılığının təmin edilməsi problemlərinin optimal həlli yollarının müəyyənləşdirilməsi üçün bu sahədə kompleks tədbirlərin görülməsi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, maliyyə təminatı mexanizmlərinin adekvatlığının təmin edilməsi üzrə maksimum optimal metodların və üsulların seçilməsi, onların müasir dövrün tələblərinə uyğun şəkildə yenilənməsi vacib şərtlərdəndir. Müəssisələrin maliyyə dayanıqlılığının balanslaşdırılması və təmin edilməsi problemləri kifayət qədər aktualdır və onların həlli yollarının optimallaşdırılması tələb olunur. Bu problemlər son illərdə daha qabarıq olaraq üzə çıxmışdır. Dünya maliyyə böhranının mənfi cəhətləri hələ də aradan qaldırılmamışdır və bununla bağlı tədbirlərin daha da intensivləşdirilməsi tələb olunur. Maliyyə resurslarından istifadəyə yanaşmalarda müəssisənin fəaliyyəti ilə bağlı bir sıra mexanizmlər və istiqamətlər diqqət çəkir. Müəssisə tərəfindən formalaşan maliyyə resurslarının əsas təyinatı onların gələcək inkişafının maliyyələşdirilməsini təmin etməkdən ibarətdir. Müəssisənin pul vəsaitlərinin formalaşdırılması həm xüsusi, həm də öz inkişafını maliyyələşdirmək üçün cəlbedilmiş pul vəsaiti hesabına həyata keçirə bilər. Maliyyə resursları müəssisənin cari və geniş təkrar istehsal xərclərini, habelə maliyyə öhdəliklərini iqtisadi stimullaşdırmağı nəzərdə tutan,


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

sərəncamda olan pul vəsaitləridir [1, s.99]. Bu amillər nəzərə alınmaqla, müəssisələrin maliyyə dayanıqlılığının təmin edilməsi məsələləri milli iqtisadiyyatın təhlükəsizliyi kontekstində daha sistemli və kompleks şəkildə baxılmalıdır. Müəssisələr şəbəkəsinin maliyyə sabitliyi şəraitində fəaliyyət göstərməsi iqtisadiyyatın ümumi sabitliyinin tərkib hissəsi kimi çıxış edir.

Qeyd edək ki, müasir şəraitdə hər bir müəssisənin özünün maliyyə təminatı strategiyasının olması da vacib şərtlərdəndir və bunun üçün maliyyə mənbələrinin diversifikasiyalaşdırılmasına nail olunmalıdır. Başqa sözlə, müəssisənin fəaliyyətinin davamlı şəkildə maliyyə təminatı mexanizmləri formalaşdırılmalıdır. Bu vəzifənin reallaşdırılması üçün müəssisənin maliyyə aktivləri və resursları dərin və dürüst şəkildə təhlil edilməli, risklər müəyyənləşdirilməli, ehtiyatlar üzə çıxarılmalı və ümumilikdə maliyyə potensialı obyektiv olaraq qiymətləndirilməlidir. Müəssisənin maliyyə vəziyyətinin uzunmüddətli dövr üçün proqnozlaşdırılması prinsipləri və meyarları formalaşdırılmalıdır. Bunlarla yanaşı, müəssisənin bütün bölmələrinin, struktur vahidlərinin maliyyə intizamına əməl etməsi üçün zəruri tədbirlər görülməli və motivasiyalar artırılmalıdır. Belə ki, müəssisənin maliyyəsi maddi istehsal və istehlak sferalarında bütün maliyyə münasibətlərini əhatə etdiyinə görə ümumi maliyyə sisteminin əsas tərkib hissəsini və maddi bazasını təşkil edir [3]. Bu prinsiplərə və meyarlara əməl olunması müəssisənin maliyyə təminatının gücləndirilməsi üçün əsas şərtlərdəndir və onlara əməl olunmasının ciddi nəzarət mexanizmləri təmin edilməlidir. İqtisadi inkişaf proseslərinin, o cümlədən müəssisələrin sabit fəaliyyətinin əsas təminedici komponentlərindən biri kimi maliyyə təminatı mühüm əhəmiyyət kəsb edir [6]. Amma, bunun praktiki fəaliyyət proseslərinin daha da genişləndirilməsi və həmin müəssisələrin səmərəliliyinin artırılması üçün maliyyə təminatı problemlərinin optimal həlli yollarının müəyyənləşdirilməsini tələb edir. Maliyyə təminatı mexanizmləri çevik və multiplikativ xarakter daşımalı, müəssisənin qarşısında duran strateji hədəflərin reallaşdırılmasına əsaslı zəmin yaratmalıdır [7].



Müəsisənin maliyyə vəziyətinin sabitləşdirilməsi, maliyyə axınları üzrə çevik və səmərəli fəaliyyət mexanizmlərinin müəyyənləşdirilməsi, işlək nəzarət sisteminin formalaşdırılması, ümumilikdə müəssisədə dövriyyədə olan maliyyə resursları üzrə keyfiyyət və kəmiyyət göstəricilərinin sistemli təhlil olunması və obyektiv şəkildə müəssisənin maliyyə dayanıqlılığının qiymətləndirilməsi əsaslandırılmış prinsiplərin və meyarların müəyyənləşdirilməsini tələb edir. Müəssisənin maliyyə resurslarının strategiyasının adekvatlığı və maliyyə bazarlarındakı mövcud konyunkturanın dəyərləndirilməsi, maliyyə resurslarından istifadənin nə dərəcədə düzgün təşkilinin marketinq araşdırılması, müxtəlif meyarlar prizmasından keçirməklə qiymətləndirilməsi təmin olunmaldır.

**Qlobal çağırışlar şəraitində müəssisənin maliyyə dayanıqlılığının artırılması istiqamətləri**

Müasir dövrdə müəssisənin maliyyə sabitliyinin gücləndirilməsi və maliyyə dayanıqlılığının artırılması mürəkkəbliyi ilə diqqət çəkir. Maliyyə resurslarının formalaşdırılması və ehtiyatlarının yaradılması üzrə risklərin sistemli şəkildə öyrənilməsi, ortaya çıxan problemlərin mahiyyətinə uyğun tədbirlərin görülməsi təmin olunmalıdır. Müəssisənin sabit fəaliyyəti üçün ilk növbədə onun ödəmə qabiliyyəti sabit vəziyyətdə saxlanılmalıdır. Belə ki, ödəmə qabiliyyəti müəssisənin bütün pul vəsaitləri hesabına öz borc və öhdəliklərinə cavabdehlik daşımaq qabiliyyətini əks etdirir. Bütün pul vəsaitlərinin tərkibində özəl və borc mənbələri olduğu üçün maliyyə dayanıqlığı dedikdə, müəssisənin özəl mənbələri hesabına öz borc və öhdəliklərinə cavabdehlik daşımaq qabiliyyətini, maliyyə asılılığı dedikdə isə, yalnız pul formasında xarici borc mənbələrinin hesabına öz borc və öhdəliklərinə cavabdehlik daşımaq qabiliyyəti başa düşülür. Buna görə də müəssisənin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ümumi ödəmə qabiliyyətinin, maliyyə dayanıqlığı və maliyyə asılılığının qiymətləndirilməsi müxtəlif kreditorlarla qarşılıqlı münasibətləri əks etdirir [12]. Müəssisənin pul dövriyyəsinin və xərclərinin onun fəaliyyət istiqamətlərinin strateji hədəflərinə uyğun şəkildə təmin edilməsi və optimallaşdırılması vacib hesab olunur. Bu məqsədlə, müəssisənin aktivləri və əsas etibarı ilə kapital resursları üzərində nəzarət və idarəetmə funksiyalarının işləkliyi, səmərəliliyi təmin edilməlidir. Müəssisənin sərəncamında olan kapitalın, maliyyə resurslarının və cari likvidlik səviyyəsinin adekvatlığı, artım tempinin olması da vacib məsələlər kimi xarakterizə olunur [11].

Qeyd edək ki, müəssisənin maliyyə dayanıqlılığının gücləndirilməsi proseslərində onun digər kreditorlar qarşısında öhdəliklərinin ciddi şəkildə nəzərə alınması və razılaşdırılmış müddətdə qarşılanması vacib şərtlərdəndir. Ümumi ödəmə qabiliyyətinin qiymətləndirilməsi müəssisənin elə kreditorlarla qarşılıqlı münasibətlərini xarakterizə edir ki, onlar pul mənbələrinin tərkibi və mənsubiyyətinə nisbəti qarşısında borc və öhdəliklərin ödənməsi faktının özündə xeyli dərəcədə maraqlıdırlar. Bu kreditorlara müəssisələrin işçiləri (əməyin ödənməsi üzrə borca görə ödəmə), tədarükçülər (xammal, materialların, əmtəələrin, işlərin və xidmətlərin borcunun ödənməsi) və bütövlükdə büdcə (vergilərin, qeyri-vergi ödəmələri və yığımlarının hesablanması üzrə borcun ödənməsi) aiddir [2]. Bundan əlavə, maliyyə dayanıqlığının qiymətləndirilməsində, ilk növbədə, müəssisənin mülkiyyətçiləri, səhmdarları maraqlıdırlar, çünki cari dövrdə borc və öhdəliklərin ödənməsi üçün, eyni zamanda sonrakı dövrdə gələcək artım və inkişaf üçün özəl ödəmə mənbələrinin kifayət etməsi məlum müəssisənin işinin səmərəliliyini tamamilə xarakterizə edir. Bu amillər baxımından, müəssisənin öz öhdəliklərini balanslaşdırılması, borc və öhdəliklərinin ödənilməsi üçün cari aktivlərin və özəl mənbələrin kifayət etməsi vacib şərtlərdəndir. Müəssisənin maliyyə dayanıqlılığı səviyyəsinin yüksəldilməsi üçün hər bir məsul şəxsin və struktur vahidinin maliyyə intizamnın təmin olunması mühüm əhəmiyyət kəsb edir [8]. Müəssisənin istehsal və kommersiya qurumlarında, idarəetmə strukturunda qeyri-səmərəsiz həlqələrin aşkarlanması, ləğv edilməsi və bununla da çəkilən xərclərin azaldılması ümumilikdə maliyyə intizamının gücləndirilməsi üçün səmərəli tədbirlərdən hesab oluna bilər. Bununla bağlı müəssisənin ödəmə qabiliyyətinin yaxşılaşması və yaxud pisləşməsi səbəblərini müəyyən etmək üçün özəl maliyyələşdirmə mənbələrinin kifayət etməsinin yoxlanılması aktual olur. Bu məqsədlə daxil olan ödəmə resurslarının səviyyəsinin qiymətləndirilməsi, borc və öhdəliklərin ödənməsi üçün onlardan istifadənin, eyni zamanda, gələcək artım və inkişaf üçün keçid qalığını özündə əks etdirən özəl pul vəsaitlərinin hərəkət balansının hazırlanması və təhlilinin aparılması vacib şərtlərdəndir. Praktiki fəaliyyət mexanizmlərinin müəyyənləşdirilməsi proseslərində antiböhran şəraitində müəssisənin sabit maliyyə fəaliyyəti modellərinin və mexanizmlərinin işlənib hazırlanmasına xüsusi diqqət yetirilməldir. Şəkil 1-də müasir dövrdə müəssisənin maliyyə dayanıqlılığının təmin edilməsi problemlərinin həlli yollarının blok-sxemi verilmişdir.

Şəkil 1-in təhlilindən yanaşsaq, müasir dövrdə müəssisənin maliyyə dayanıqlılığının təmin edlməsi problemlərinin həlli üçün, ilk növbədə müəssisənin strateji hədəflərinə uyğun şəkildə maliyyə konsepsiyası və strategiyasının olması vacib şərtlərdəndir. Bunlarla bağlı, maliyyə resurslarının müasir dövrün tələblərinə cavab verə biləcək səviyyədə fəaliyyət və idarəetmə mexanizmlərinin olması da mühüm əhəmiyyət daşıyır. Başqa bir problem, müəssisənin maliyyə resurslarının formalaşdırılması üçün mühüm əhəmiyyət kəsb edən maliyyə axınları mənbələrinin məhsuldarlığının və davamlı şəkildə olmasının təmin edilməsi ilə bağlıdır. Bunun üçün müəssisənin fəaliyyət sahələrinin səmərəliliyi və rentabellik səviyyəsi müasir tələblərə uyğun olaraq müəyyənləşdirilməli, onlara əməl olunmasına səy göstərilməlidir. Xüsusilə, müəssisənin öz vəsaitləri hesabına formalaşan kapitalın artım



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

tempinə ciddi önəm verilməli və bunlarla bağlı olaraq, müəssisənin mövcud aktivlərinin likvidlik problemlərinin həlli yolları axtarılmalıdır. Maliyyə resurslarının hərəkəti üzrə hər bir fəaliyyət mərhələsinin səmərəlilik prinsipləri əsasında nəzarətdə saxlanılması və bunlarla bağlı həmin proseslərə məsuliyyət daşıyan işçilərin və menecment heyətinin güclü maliyyə intizamı təmin olunmalıdır. Eyni zamanda, müəssisənin fəaliyyəti ilə bağlı gündəlik xərclərin azaldılması və ümumilikdə məsrəflərin minimuma endirilməsi strategiyası formalaşdırılmalı, bunlarla bağlı işçilərin motivasiyası artırılmalıdır. Başqa bir problem, maliyyə bazarlarında baş verən transformasiyalara və digər tendensiyalara çevik reaksiyanın təmin olunması ilə bağlıdır. Belə ki, müəssisə transformasiyalar və antiböhran şəraitində təkmilləşdirilmiş və güclü immunitetə malik maliyyə dayanıqlılığı mexanizmlərinə və fəaliyyət alətlərinə malik olmalıdır.

**Şəkil 1.**

**Müasir dövrdə müəssisənin maliyyə dayanıqlılığının təmin edilməsi problemlərinin həlli yollarının blok-sxemi (tədqiqat materiallarına görə müəllif tərəfindən hazırlanmışdır).**



**Nəticə**

Beləliklə, bu nəticəyə gəlmək olar ki, hər bir müəssisənin güclü maliyyə siyasəti, maliyyə dayanıqlılığını təmin edən fəaliyyət mexanizmləri və maliyyə strategiyası olmalıdır. Bunun üçün, müəssisənin uzunmüddətli strateji fəaliyyət istiqamətləri müəyyənləşdirilməli, bunlara uyğun şəkildə maliyyə dayanıqlılığı prinsipləri hazırlanmalı və əvvəldə bildirdiyimiz kimi, onlara ciddi əməl olunması təmin edilməli, bununla bağlı müəssisənin məsul işçilərinin və menecment heyətinin, xüsusilə maliyyə menecmentinin rolu artırılmalıdır. Maliyyə menecmenti maliyyə dayanıqlılığı ilə bağlı problemləri dərindən təhlil etməklə bərabər, onların həlli yolları üzrə müvafiq idarəetmə qərarları və fəaliyyət mexanizmləri üzrə təkliflər hazırlamalıdırlar. Bu istiqamətdə bir qrup məsələlərə daha çox önəm verilməldir: qlobal maliyyə çağırışları şəraitində müəssisənin strateji maliyyə mexanizmlərinin hazırlanması və bununla əlaqədar məsələlərin konseptual olaraq baxılması məqsədəuyğun sayılmalıdır; müəssisənin maliyyə mexanzimlərinin antiböhran şəraitində rəqabətə tab gətirməsi problemləri araşdırılmalı və obyektiv reallıqlardan baxmaqla qiymətləndirilməldir; müəssisənin maliyyə mənbələrinin diversifikasiyalaşdırılmasına, həmin mənbələrin dayanıqlılığının yüksəldilməsinə nail olunması prinsipləri və meyarları göstəriciləri işlənib hazırlanmalı, bunların reallaşdırılması tədbirlərinin səmərəliliyi təmin olunmalıdır.

**Ədəbiyyat**


1. Ataşov B.X. Maliyyə bazarları. Bakı, “Kooperasiya” nəşriyyatı, 2016.
2. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Maliyyə nəzəriyyəsi. Bakı.“Kooperasiya” nəşriyyatı, 2014.
3. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Müəssisələrin maliyyəsi. Bakı.“Kooperasiya” nəşriyyatı, 2009.
4. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.
5. Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 15 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir.
6. Əliyev Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt, 2018.
7. Əliyev Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri. Audit, № 03, 2017.
8. Həsənov B.N. Azərbaycan Respublikasında dövlət maliyyəsinin formalaşması və səmərəliliyinin artırılmasının nəzəri aspektləri. i.f.d. Avtoreferatı. Bakı, 2008.
9. Kredit Zəmanət Fondunun yaradılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Fərmanı, Bakı şəhəri, 15 sentyabr 2017-ci il.
10. Гинзбург, А.И. Экономический анализ. М: ПИТЕР, 2011.
11. Ермошенко Т.А. Теоретические аспекты управления финансовой устойчивостью предприятия. Экономика и социум. 2015. № 3 (16).
12. Зайков В.П. Теория и методология управления финансовыми потоками. Автореферат дисс. д-ра экон. наук. Санкт-Петербург, 2008.
13. Канке, А.А. Анализ финансово-хозяйственной деятельности предприятия. М.: Форум. ИНФРА-М, 2008.
14. Ковалев, В.В. Анализ хозяйственной деятельности предприятия. М.: Проспект, 2009.
15. Чечевицина, Л.Н. Анализ финансово-хозяйственной деятельности. Ростов-на-дону: Феникс, 2008.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Матлаб Мохуббат оглы Магеррамов***

***Проблемы и пути решения обеспечения финансовой устойчивости предприятия в современном периоде***

***Резюме***

*В статье исследованы проблемы и пути решения обеспечения финансовой устойчивости предприятия в современном периоде. С этой целью анализированы сущность и важность финансовой устойчивости. Исследованы основные принципы и критерии финансовой устойчивости предприятия. Системно рассмотрены внутренние и внешние факторы, оказывающие влияние на финансовую стабильность предприятия. Обосновано преимущество основных подходов по формированию и усилению финансовой устойчивости предприятия. Анализированы процессы возникновения и углубления финансовых проблем. Отмечены важность разработки и применения механизмов управления по эффективности движения финансовых потоков предприятия. Указана необходимость осуществления мероприятиями по диверсификации финансовых источников предприятия по обеспечению её финансовой стабильности. Обращено внимание на важность обеспечения прозрачности и объективности основных механизмов финансовых стратегий предприятия. Обоснована необходимость эффективной реализации стратегических функций финансового менеджмента. Отмечены приоритетность обеспечения профессионального уровня финансового менеджмента. Указана важность обеспечения беспрерывного потока оборотных средств, обеспечивающих стабильную работу предприятий. Обосновано рассмотрение на стратегическом уровне обеспечения оптимальности механизмов управления и контрольной функции по движению финансовых ресурсов. Коснулись проблем финансовой устойчивости предприятия в антикризисном периоде. Подготовлены рекомендации и даны предложения по проблемам и путям решения обеспечения финансовой устойчивости предприятия в современном периоде.*

***Ключевые слова:*** *финансовая устойчивость предприятия, финансовые проблемы предприятия, финансовая стабильность, финансовая стратегия, финансовые потоки, финансовые ресурсы, механизмы управления финансов*



***Matlab Mohubbat Maharramov***

***Problems and ways to solve ensuring financial sustainability of the enterprise in the modern period***

***Resume***

*The problems and solutions to ensure the financial sustainability of the enterprise in the modern period are examined in the article. The nature and importance of financial stability are analyzed with this purpose. The basic principles and criteria of financial sustainability of the enterprise are investigated. The internal and external factors that affect the financial stability of the enterprise are systematically considered. The advantage of the main approaches to the formation and strengthening of the financial sustainability of the enterprise is substantiated. Analyzed the processes of occurrence and deepening financial problems. The importance of the development and application of management mechanisms for the efficiency of the movement of financial flows of an enterprise is noted. The need for implementation of measures to diversify the financial sources of the company to ensure its financial stability is indicated. Attention to the importance of ensuring transparency and objectivity of the basic mechanisms of an enterprise's financial strategies is drawn. The necessity of the effective*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

*implementation of the strategic functions of financial management is justified. The priority of ensuring the professional level of financial management is noted. The importance of ensuring a continuous stream of working capital to ensure stable operation of enterprises is indicated. The consideration at the strategic level of ensuring the optimality of management mechanisms and the control function for the movement of financial resources is justified. We touched upon the problems of financial sustainability of the enterprise in the anti-crisis period. Recommendations and suggestions on the problems and ways to address the financial sustainability of the enterprise in the modern period are prepared and given.*

***Keywords:*** *financial stability of an enterprise, financial problems of an enterprise, financial stability, financial strategy, financial flows, financial resources, financial management mechanisms.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub:20.05.2019.***
***Çapa qəbul olunub:23.05.2019.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*